# Respublikamızda aparılan islahatların uğur qazanmasında meliorasiya və su təsərrüfatı obyektlərinin rolu

*Azərbaycan Meliorasiya və Su Təsərrüfatı işçilərinin ötən ilki peşə bayramından keçən bir il ərzində ölkəmizin həyatında olduqca mühüm və əhəmiyyətli hadisələr olmuşdur. Bu müddət ərzində respublikamız öz inkişaf tempini daha da sürətləndirmiş, ölkə həyatının müxtəlif sahələrində yeni-yeni uğurlara imza atılmışdır. Bu ilin yanvar ayının 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin davamlı inkişafından söhbət açaraq demişdir:* ***"Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək".***

2018-ci il ölkəmiz üçün islahatlar ili olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən islahatların məqsədi ölkəmizin davamlı inkişafına yönəlmişdir. Uğurla həyata keçirilən islahatlar nəticəsində ölkəmizin iqtisadi, sosial, humanitar, mədəni və digər mühüm sahələrində qısa müddət ərzində olduqca böyük uğurlar əldə edilmişdir. Davamlı inkişafa nail olmaq məqsədi ilə həyata keçirilən islahatlar sayəsində ölkəmizin hərtərəfli uğurlar əldə etməsi Beynəlxalq inkişaf təşkilatları tərəfindən də təsdiqlənir.

Dünyada və regionda olduqca mürəkkəb proseslərin getməsinə baxmayaraq ölkəmizdə aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatının dayanıqlığı təmin olunmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyev ölkəmizdə aparılan islahatların respublikamız üçün olduqca mühüm əhəmiyyət daşıdığını və bu səbəbdən aparılan islahatların bundan sonra da davam etdiriləcəyini bildirmişdir: *"İslahatlar dərinləşəcək. İslahatlara alternativ yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, sosial sahədə islahatlar, məhkəmə-hüquq sistemində islahatlar, - artıq müvafiq göstərişlər verilib və sənədlər paketi hazırlanır, - təhsil, səhiyyə sahələrində, hər bir sahədə, Azərbaycan yeni dövrə qədəm qoyub. Azərbaycan yeniləşir, Azərbaycan güclənir və müasirləşir".*

Doğrudan da, möhtərəm Prezidentimizin söylədiyi kimi, hazırda respublikamız elə bir yeni dövrə qədəm qoyub ki, bu dövrdə qazanılmış uğurlar ölkə həyatının ən müxtəlif sahələrində sosial rifahın yüksəlişini, insanların sosial problemlərinin həllini, vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşmasını gerçəkləşdirmək imkanı yaradır.

Ölkə Prezidenti cənab İlham Əliyevin müəllifi olduğu və onun rəhbərliyi ilə həyata keçirilən islahatlar respublikamızda hamı tərəfindən, eləcə də ölkə melioratorları tərəfindən ürəkdən bəyənilir. Respublikamızın melioratorları ölkə başçısının apardığı Azərbaycanın inkişaf tempinin dinamikliyini daha da sürətləndirən islahatlara öz əməli fəaliyyətləri ilə dəstək verirlər. Belə ki, ölkəmizin bütün sahələrində olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsində də respublikamızın həyatı üçün olduqca vacib olan bir sıra layihələr uğurla həyata keçirilir.

Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab İlham Əliyevin qeyd etdiyi kimi, ötən il Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən respublikamızda 100 min hektar torpaq sahəsi suvarma suyu ilə təmin olunmuşdur. 60 min hektarının su təminatı yaxşılaşdırılmış bu sahənin 40 min hektarı yeni suvarılan ərazi kimi əkin dövriyyəsinə daxil edilmişdir. Bundan başqa, meliorasiya və su təsərrüfatı işçiləri tərəfindən ötən il ərzində Kür, Araz və eləcə də müxtəlif dağ çaylarının torpaq mühafizə bəndlərinin 133 km-lik hissəsində möhkəmləndirmə işləri aparılmış və burada 3890,0 $m^3$ həcmində daş və betonla sahilbərkitmə işləri yerinə yetirilmişdir.

Respublikamızın müxtəlif çay məcralarında 17,2 mln. $m^3$ həcmində məcratəmizləmə, suvarma və kollektor-drenaj şəbəkələrində isə 62,0 mln. $m^3$ həcmində lildən təmizləmə işləri aparılmışdır. Ölkə ərazisində 5837 hidrotexniki qurğu, 5203 subartezian quyusu, 276 nasos stansiyası təmir edilərək yenidən istismara verilmişdir.

Ötən il ölkə başçısı cənab İlham Əliyev Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən inşa olunmuş bir sıra obyektlərin açılış mərasimində şəxsən iştirak etmişdir ki, bu obyektlərə misal olaraq *"Şəmkir-Samur-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 km-lik hissəsi", "Lerik şəhərinin içməli su sisteminin və kanalizasiya şəbəkəsi", "Araz çayının Yeni qol kanalı" və "Ulu Aqro" MMC-nin Qax Aqroparkı"* obyektlərini göstərə bilərik. Ölkə başçısının bu obyektlərin açılışında iştirak etməsi onun respublika meliorasiya və su təsərrüfatı işçilərinin əməyinə yüksək dəyər verməsinin təzahürüdür.

Bu obyektlərlə yanaşı, 2018-ci ildə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən 1900 ha yeni suvarma sahəsini suvarma suyu ilə təmin edəcək "Yuxarı Mil Kanalının tikintisi", 2720 ha yeni suvarma sahəsini suvaracaq "Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədilə tədbirlərin görülməsi layihəsi", Saatlı rayonunda 2500 ha, İmişli rayonunda 9645 ha, Biləsuvar rayonunda isə 1000 ha, olmaqla ümumilikdə 13145 ha torpaq sahəsinə suvarma suyunu çatdıracaq "Araz çayının Yeni qolunun beton üzlüyə alınması", Abşeron rayonunda 6710 ha sahənin su təminatını yaxşılaşdıracaq "Abşeron yarımadasında kənd təsərrüfatına yararlı torpaqların suvarma vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə Abşeron magistral kanalında yenidənqurma işlərinin aparılması və kanalın suburaxma qabiliyyətinin artırılması", Goranboy rayonunda 10218 ha sahənin su təminatını yaxşılaşdıracaq, 1570 ha yeni suvarma sahəsini isə suvarma suyu ilə təmin edəcək "Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının 2-ci növbəsinin tikintisi" başa çatdırılıb. Neftçala rayonunda 12433 ha yeni suvarma sahəsini suvarma suyu ilə təmin edəcək "Neftçala magistral kanalının nasos stansiyası ilə tikintisi", Şabran rayonunun inzibati ərazisində yaradılan 1738 ha sahəni əhatə edən "Şabran Aqropark" MMC-nin infrastrukturun qurulması məqsədilə su təminatı və meliorativ işlər", 888 ha yeni suvarılan sahəni əhatə edən "Qax rayonunda yaradılan Aqroparkın ərazisində suvarma suyunun çatdırılması", 1607 ha yeni suvarılan sahəni əhatə edəcək "Xəzər, Pirallahı və Xızı rayonlarının zeytun və badam salınacaq ərazilərdə torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsinin layihə-smeta sənədlərinin hazırlanması və işlərə başlanması", 758 ha yeni suvarılan sahəni əhatə edən "Xəzər rayonunun Qoşa-Qışlaq kəndi ərazisində nəzərdə tutulan yeni əkin sahəsinə suvarma suyunun çatdırılması", 10950 ha sahəni əhatə edən "Sabirabad və Salyan rayonlarında yerləşən qış otlaqlarında meliorativ tədbirlərin aparılması", 7551 ha yeni suvarılan sahəni əhatə edən "Sabirabad rayonunun Sarxanbəyli, Moranlı, Bala Həşimxanlı, Əliləmbəyli kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün "H" kanalının yenidən qurulması", layihələri həyata keçirilib. 500 ha yeni suvarılan sahəni əhatə edən "Qazax rayonunun Xanlıqlar, Kəmərli, Aslanbəyli, Qaymaqlı və İkinci Şıxlı kəndlərinin əkin sahələrini su ilə təmin etmək məqsədilə su nasos stansiyalarının və yeraltı suvarma şəbəkəsinin bərpası", 280 ha yeni suvarılan sahəni suvarma suyu ilə təmin edən"Cəbrayıl rayon Cocuq Mərcanlı kəndində əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi", 7122 ha sahənin su təminatını yaxşılaşdıracaq 4762 ha yeni suvarma sahəsini isə suvarma suyu ilə təmin edəcək "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xızı, Siyəzən və Şabran rayonlarının əkin sahələrinin su təminatının yaxşılaşdırılması (Şabran rayonu üzrə)", 7312 ha sahənin su təminatını yaxşılaşdıracaq, 1428 ha yeni suvarma sahəsini isə suvarma suyu ilə təmin edəcək "Əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının layihələndirilməsi və qazılması" obyektləri tikilərək istifadəyə verilmişdir. Bu obyektlərin istismara verilməsi ölkə iqtisadiyyatının inkişafında olduqca mühüm rol oynayacaqdır.

Onu da qeyd edək ki, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC rəhbərliyi ilə tikilib istifadəyə verilən obyektlərin böyük əksəriyyətinin layihə-smeta sənədləri Su Təsərrüfatı Obyektlərinin Layihələndirilməsi üzrə Azərbaycan Dövlət İnstitutu "Azdövsutəslayihə" tərəfindən işlənib hazırlanmışdır. Ümumiyyətlə, 2018-ci ildə "Azdövsutəslayihə" institutu tərəfindən bir sıra meliorasiya və su təsərrüfatı obyektlərinin, o cümlədən "Şəmkir maşın kanalının tikintisi (II növbə)", "Əhalisi 592736 nəfərə yaxın olan 38 şəhər və rayonun 249 yaşayış məntəqəsində əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 subartezian quyusunun layihələndirilməsi və qazılması", 3300 ha sahəni əhatə edəcək "Xəzər, Pirallahı və Xızı rayonlarının zeytun və badam salınacaq ərazilərdə torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsinin layihə-smeta sənədlərinin hazırlanması və işlərə başlanması", "Hacıqabul rayonunun Muğan, Padar qəsəbələrində və Qarasu kəndində torpaq sahələrinin suvarılmasını təmin etmək məqsədilə tədbirlərin görülməsi", 12000 ha ərazini əhatə edəcək "Şəki və Oğuz rayonları ərazisində yaradılacaq Aqroparkın suvarma suyu ilə təmin edilməsi", 52638 ha sahəni suvarma suyu ilə təmin edəcək "Araz çayının yeni qolu vasitəsi yeni suvarılan torpaqların istifadəyə verilməsi" ,"Sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri" və digər bu kimi obyektlərin layihə-smeta sənədləri institutun mütəxəssisləri tərəfindən tərtib olunmuşdur.

"Azdövsutəslayihə" İnstitutunun kollektivi tərəfindən 2019-cu ildə də respublikamızda inşa olunması nəzərdə tutulan bir sıra su təsərrüfatı və meliorasiya obyektlərinin layihə-smeta sənədləri tərtib olunur. Cari ilin 5 ayı ərzində institutun layihəçiləri "Ağstafa rayonunun Köçəsgər kəndi yaxınlığında yerləşən hərbi hissənin ərazisində qrunt sularının səviyyəsinin aşağı salınması", "Goranboy rayonunun Erkəc kəndi ərazisində yaradılacaq aqroparkın (fındıq bağları) suvarma suyu ilə təmin edilməsi", "Ağcabədi royonunda yaradılan aqroparkın 850 ha əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi", "Füzuli rayonu ərazisində 1200 ha əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi", "Tovuz rayonunun Düz Qırıqlı kəndində yaradılan aqroparkın əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi", "Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi məqsədilə magistral və paylayıcı suvarma şəbəkəsinin tikintisi", "Araz çayının Yeni qolundan suyun yeni suvarılacaq torpaq sahələrinə verilməsi üçün paylayıcı kanalların tikintisi - I mərhələ (ərazinin qrunt sularının səviyyəsinin aşağı salınması tədbirləri)", "Yuxarı Şirvan kanalının Turyançayla kəsişməsindəki dükerin yumaya qarşı mübarizəsi üçün Barraj-fiksatorun təmir-bərpa işləri", "Lənkəran rayonu ərazisində su təsərrüfatı obyektlərinin bərpası və rayon ərazisindəki çaylarda sahilbərkitmə işləri daxilində nəzərdə tutulan obyektlərin tikintisi (Ulumçay çayı), "Astara rayonunun Astara və Pencər çaylarında sahilbərkitmə işləri (Astara çayı)" və "Masallı rayonunda 3230 ha əkin sahəsinin suvarma suyu ilə təminatını yaxşılaşdırmaq məqsədilə 37 kiçik sututarlarda zəruri təmir işlərinin aparılması" obyektlərinin layihə-smeta sənədlərinin hazırlanmasını başa çatdıraraq sifarişçi təşkilata təhvil vermişlər.



Hazırda isə institutda "Ağsu rayonu əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Qazanarx kanalının yenidən qurulması", "Şəmkir maşın kanalının tikintisi (II növbə) - kanalın zonasında paylayıcı kanalların tikintisi, "Xəzər və Pirallahı rayonlarının zeytun və badam bağları salınacaq ərazilərdə torpaq sahələrinin suvarma suyu ilə təmin edilməsi (Xəzər və Pirallahı rayonları üzrə) - III mərhələ", "Yevlax və Goranboy rayonları ərazisində 3120 ha əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi", "Ağcabədi rayonunda 2500 ha əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi", "Biləsuvar rayonunda 1090 ha yeni əkin sahəsinin suvarma suyu ilə təmin edilməsi və kollektor-drenaj sisteminin tikintisi tədbirlərinin layihə sənədlərinin hazırlanması", "Qobustan rayonunun Qaracüzlü kəndi yaxınlığında yaradılmış aqroparka məxsus 998 ha torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi tədbirlərinin layihə sənədlərinin hazırlanması" və "Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədi ilə subartezian quyularının qazılması - 300 ədəd" kimi obyektlərin layihələndirilməsi işləri uğurla davam etdirilir.

Eyni zamanda, respublikamızda istismarda olan bir sıra obyektlərdə aparılacaq təmir-bərpa işlərinin layihə-smeta sənədləri də institutumuz tərəfindən hazırlanır. Bundan başqa, institutumuzun əməkdaşları tərəfindən respublikamızda inşa olunan onlarla su təsərrüfatı və meliorasiya obyektində müəllif nəzarəti işləri də həyata keçirilir.

Bütün obyektlərin layihə-smeta sənədləri institut kollektivi tərəfindən müasir standartlara uyğun olaraq elm və texnikanın ən yeni nailiyyətləri tətbiq olunmaqla işlənib hazırlanır. Ümid edirik ki, respublikamızda tikilərək istismara verilən hər bir meliorasiya və su təsərrüfatı obyekti respublikamızda aparılan islahatların uğur qazanmasına mühüm töhfə verməklə yanaşı, həm də respublikamızın davamlı inkişafına, ölkə əhalisinin yaşayış səviyyəsinin, sosial rifahının yüksəlişinə yardım edəcəkdir.

**Elbrus PAŞAYEV,**
**"Azdövsutəslayihə" İnstitutunun direktoru, Əməkdar mühəndis, texnika elmləri namizədi.**